# "Təriflərdən rahatlanmaq olmaz"

## Vüsal Murtuzəliyev: "Aktyor üçün faktura o qədər də böyük rol oynamamalıdır. Əsas məsələ görünüş, səs tembri və ifanın maraqlı olmasıdır"



**Aktyorluq şərəfli və bir o qədər də məsuliyyətli sənətdir. Bu sənətə lazımınca yiyələnmək heç də kənardan göründüyü qədər asan və tez başa gəlmir. İşinin məsuliyyətini dərk edən, 2016-cı ildə redaksiyamızın ilk qonağı olan Vüsal Murtuzəliyev bunu öz sözləri ilə təsdiqlədi. O hesab edir ki, bu gün aktyor olmaq heç də asan məsələ deyil.**

Müsahibim Vüsal Murtuzəliyev Hasil oğlu, 1982-ci ildə Sumqayıt şəhərində anadan olub. İlk təhsilini də məhz Sumqayıtda alıb. 1999-cu ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "rejissorluq" fakültəsinə daxil olub. 2003-cü ildə rejissorluğu bitirsə də, aktyor kimi fəaliyyət göstərib. O, deyir ki, rejissorluq onun yaradıcılığından uzaqdır. İmtahan zamanı kodlaşdırma sistemindəki kiçik bir səhv ucbatından rejissorluq fakültəsinə daxil olub: "Etiraf edirəm, ki, rejissorluq mənlik deyil. Universiteti bitirdikdən sonra gördüm ki, nədənsə bu sahə məndə alınmır. Müəllimim xalq artisti Azərpaşa Nemətov da deyirdi ki, səndən yaxşı aktyor çıxar. Rejissorluğu bitirsəm də, aktyorluq mənə daha yaxındır. Hesab edirəm ki, hər kəs bacardığı işlə məşğul olsa, daha yaxşı olar".

**- Yeni ildə sizi redaksiyamızda xoş gördük. Vüsal bəy, deyirsiniz ki, aktyor olmaq məsuliyyətli işdir. Bu yönümdə sizin ilk işiniz nə olub?**

- Hərbi xidmətdən döndükdən sonra Azərbaycan Dövlət Televiziyasında filmlərin dublyajı ilə məşğul oldum. Demək olar, 11 ildir ki, dublyaj sənəti ilə məşğulam. Film sahəsinə gəlincə isə, iştirak etdiyim ilk filmim 2007-ci ildə olub. Belə ki, Ramiz Həsənoğlunun rejissorluğu ilə çəkilmiş "Cavid ömrü" filmində Hüseyn Cavidin oğlu Ərtoğrulu canlandırırdım. Daha sonra Elxan Cəfərovun "Dolu" filmində jurnalist rolunu canlandırmışam. Emin Mirabdullayevin rejissorluğu ilə çəkilmiş "Halal pullar" adlı filmdə Azad obrazı ilə çıxış etmişəm. Serial aləmində isə, "SOY" prodakşnın istehsalı olan "Sirr", "Miras", "QayınanaMız" seriallarında obrazlar canlandırmışam.

**- Aktyorluq bacarığı sizdə yəqin ki, ailədən gəlir. Bacınız Dilarə Əliyeva da Azərbaycanın aparıcı aktrisalarındandır.**

- Ailəmizdən bu sənətə yiyələnən bacım Dilarə, bir də mən oldum. Rəhmətlik atamın incəsənətə böyük marağı olub. O da gənc ikən İncəsənət İnstitutuna sənəd verib, ancaq qəbul ola bilməyib. Onun kinoya, teatra çox böyük həvəsi var idi. Ancaq buna baxmayaraq, ticarətlə məşğul olub. Ailədə 4 uşaq olmuşuq. İki oğlan, iki qız. Mən evin sonbeşiyiyəm. Yəqin ki, bizim incəsənət adamları olmağımız ailəmizin məhz bu sahəyə olan sevgisindən qaynaqlanıb.

**- Nə üçün hərbi xidmətdən döndükdən sonra teatra getmədiniz? Adətən aktyorlar ilk olaraq yaradıcılığa teatrdan başlayırlar.**

- Bunu mənə çox adam deyib. Hərbi xidmətdən döndükdən sonra mənə dedilər ki, teatrda daha çox uğur qazana bilərsən. Rejissorluq ixtisasına da yiyələndiyim üçün bu, sırf mənim sahəm idi. Akademik Milli Dram Teatrından təklif gəlmişdi. Bəlkə daha gənc vaxtlarım olsaydı, gedərdim. Əgər teatra getməmişəmsə, bu o demək deyil ki, oranı bəyənmirəm. Əsla belə deyil. Mən hər zaman teatrı sənət baxımından üstün tutmuşam. Hətta bir dəfə Akademik Milli Dram Teatrında müəllimim Azərpaşa Nemətovun rejissorluq etdiyi "12-ci gecə" tamaşasında dəvətli aktyor olaraq obraz da canlandırmışam.




**- Müəlliminiz Azərpaşa Nemətov Akademik Milli Dram Teatrına direktor təyin olunub. Hesab edirsinizmi ki, bundan sonra ana teatrın səhnəsinin qapıları üzünüzə taybatay açılacaq.**

- Azərpaşa Nemətov uzun müddət mənə teatra gəlməyimi, orada çalışmağımı məsləhət görürdü. Qismət! İndi deyə bilmərəm gecdir, ya da tam vaxtıdır. Hazırda 34 yaşım var. Qismət olsa, düşünərəm. İndi zaman qıtlığı yaşayıram. Belə ki, dublyaj, çəkilişlər vaxtımı alır. Teatrda işləmək də çox məsuliyyətli işdir. Səhnə elə bir şeydir ki, hər zaman aktyordan formada qalmağı, işləməyi tələb edir. Teatrda çalışan bütün aktyorlara hörmət edirəm. Düzdür, onlar da çəkilişlərdə iştirak edirlər, teatrdan əlavə çəkilişlərə gedirlər. Səhnənin məsuliyyətini daha çox dərk edirəm. Çünki orada tamaşaçı ilə canlı ünsiyyətdə olmağa məcbursan. Bəlkə də ondan bir az ehtiyatlanıram. Özümü teatra həsr etsəm, bəlkə də başqa yerlərdə çıxış edə bilmərəm. Ən çox da buna görə narahatam.

**- Bəlkə teatrda məvacib azdır deyə ora getmək istəmirsiniz?**

- Açığı, teatrda çalışmamağımın səbəblərinin içərisində o da var. İnşallah, qismət... Yaşayarıq görərik.

**- Vüsal bəy, yeni mövsümdən sizi ATV-də yayımlanan "TamamLa" verilişində aparıcı kimi gördük. Aktyorun birdən-birə aparıcılıq etməsi çətin deyilmi?**

- Burada heç bir çətinlik yoxdur. "TamamLa" verilişi intellektual olmağı ilə bərabər, həm də əyləncəli verilişdir. Verilişdə məşhur qonaqlarımız olur. Verilişin formatı hər nə qədər intellektual olsa da, orada əyləncə də var. Bu layihə mənim aparıcı kimi ilk işimdir. "SOY" prodakşın mənə belə bir təklif etdikdə, böyük məmnuniyyətlə qəbul etdim. İlk sınaq çəkilişlərimiz oldu, baxdılar və məni qəbul etdilər. Aparıcılıq asan iş deyil. Onun da öz çətinlikləri var. Deyilənlərə görə, maraqlı verilişdir, ətrafımdakı insanlardan müsbət rəylər alıram, bu da məni sevindirir. Hesab edirəm ki, hər bir aparıcının aktyorluq məharəti də olmalıdır. Xarici telekanallara nəzər salsanız, görərsiniz ki, orada ən baxımlı verilişlərin aparıcılarının əksəriyyəti məhz aktyorlardır.

**- 2015-ci il sizin üçün düşərli oldu, bəs 2016-cı ildə hədəfləriniz nələrdir?**

- Bizim işimiz elədir ki, nəyisə öncədən planlaşdırmaq olmur. Aktyor sənəti asılı sənətdir. Gərək bizi seriallara, filmlərə dəvət etsinlər ki, biz də işləyək. Bizim işimiz budur. Hələ ki hər şey qaydasındadır. Bu mənim aparıcı kimi ilk işimdir. Boynuma alıram ki, bu istiqamətdə çox təcrübəsizəm. Düzdür, aparıcılığımı bəyənirlər, ancaq təriflərdən rahatlanmaq olmaz.

**- Təriflər başınızı gicəlləndirmir ki?**

- Əksinə, məni çox tərifləyəndə xoşum gəlmir. Tənqidi xoşlayıram. Tənqid olanda inkişaf olur. Onda bilirsən ki, sənin işində çatışmayan cəhətlərin hansılardır.

**- Bu işdə bacınız Dilarə Əliyevanın daha çox təcrübəsi var. O, sizə dəstək olurmu?**

- Əlbəttə, Dilarə xanım hər zaman mənim dəstəkçimdir. O, uşaqlıqdan mənə arxa-dayaq olub. Hətta məni universitetə Dilarə hazırlayıb. Bu günə kimi bacım da, Oqtay müəllim də mənə dəstək olublar. Tək mənə yox, ailəmizə də mənəvi dəstəkləri çox olub. Biz bir ailəyik. Yaxşı gündə də, pis gündə də bir-birimizin yanındayıq, əlimizdən tuturuq, bir-birimizə dayaq oluruq. Dilarə xanım böyük ürəyə malikdir. Bacım olduğuna görə demirəm, onun yumşaq, kövrək ürəyi var.



**- Qeyd etdiniz ki, 11 ildir dublyajda fəaliyyət göstərirsiniz. Gəlin qəbul edək ki, bizdə bu sahədə bir qədər zəiflik var.**

- Fikirlərinizlə razıyam. Nə olsun ki, mən dublyajda çalışıram? Doğrudan da bu sahənin çatışmayan mənfi cəhətlər çoxdur. Tək aktyor problemi deyil. Hər şeyi aktyorun üzərinə atmaq düzgün olmazdı. Bu sənət belədir ki, hər şey bir-birinə zəncirvari şəkildə bağlıdır. Biz bir filmi bir günə dublyaj ediriksə, xaricdə gördüyünüz o filmlərin üzərində həftələrlə, aylarla işləyirlər. Hər şey maddiyyata bağlıdır. Etiraf edək ki, bu gün telekanallar dublyaja o qədər də diqqət, qayğı göstərmirlər. Onları da qınamıram. Özəl kanallardır, bu sahədən onlara gəlir gəlmir deyə, dublyaja o qədər də pul xərcləmək istəmirlər. Halbuki bizdə çox yaxşı dublyaj aktyorları var. Son illərə baxanda bizim dublyajlarımızda aktyorların danışığı, təbiiliyi daha yaxşıdır. O vaxt kinostudiyada filmlər dublyaj olunurdu. Həmin zamanlar bir telekanal - Azərbaycan Dövlət Televiziyası fəaliyyət göstərirdi. Bütün filmlər kinostudiyada ideal dublyaj olunurdu. Kinostudiyada dublyaj olunan həmin filmlər indidə də çox baxımlıdır. Xarici dublyaj sistemi məhz Sovet dövründə filmlərimizin dublyaj sistemi ilə eyni idi. Bir filmi tərcümə etmək üçün aktyorlarımız həftələrlə, aylarla çalışırdılar. Bu proses bizdə olub və gözəl alınıb. Filmlərimiz çox peşəkar və ustalıqla dublyaj olunurdu. Bizim aktyorlar MDB məkanında köhnə Sovetlər birliyində ən yaxşı dublyaj aktyorları kimi mükafatlara layiq görülürdülər. Yəni deməyim odur ki, bizdə də ideal dublyajlar olub. Biz o aktyorların işlərini görüb, yararlanmışıq. O aktyorlar bizim üçün böyük məktəb olublar. Onlardan çox şey öyrənmişik.

**- Bəlkə bunun üçün xüsusi aktyorlar yetişdirilməlidir?**

- Bizdə hələ ki elə sahə yoxdur. Açığını desəm, yeni nəsildən bu sahəyə gələnlər də yoxdur. Bəlkə də gəliri azdır deyə gəlmirlər. Dublyaj işi çox çətindir. Dublyajın öz texnikası var. Bu da aktyordan kifayət qədər vaxt tələb edir. Mən özüm bu sənəti öyrənmək üçün 3 ay təcrübə toplamışam. Əslində çox maraqlı işdir. Ancaq ammaları çoxdur... Onu da demək lazımdır ki, əvvəlki illərə baxanda indi bu sahədə bir qədər irəliləyiş var. Xaricdə tərcümələr daha təbii, sadədir. Bu iş elədir ki, orada həddən çox pafos olmamalıdır.

**- Simanıza baxanda, fakturanız daha çox ciddi obrazlara uyğun gəlir. Nədənsə sizi komik verilişlərdə, obrazlarda görmək çətindir.**

- Bunu mənə çox adam deyib. İlk dəfə məni "Miras" serialında komediya aktyoru kimi görəndə təəccüb etdilər. Deyirdilər ki, səni hər zaman ciddi, dramatik rollarda görmüşük. Aktyor ciddi rol da oynaya bilər, komik də. Əgər aktyorsansa, hər bir janrda obraz canlandırmağı bacarmalısan. O fikirlə razı deyiləm ki, bu aktyor mütləq komediya oynamalıdır. Aktyor üçün faktura o qədər də böyük rol oynamamalıdır. Əsas odur ki, görünüş, səs tembri, ifa maraqlı olsun. Pyer Rişarı hər zaman komik rollarda görmüşük. Bir dəfə onu ciddi rolda gördüm, həqiqətən təəccübləndim. Rejissorlar aktyorları çərçivəyə salırlar. Sanki yeni nəsil, yeni sima yetişdirmək istəmirlər. Bəlkə işləməkdən qorxurlar. Bilmirəm. Əgər bir aktyorun istedadı varsa, onu düzgün istiqamətə yönləndirib işləmək lazımdır. Qoy tamaşaçı da təəccüblənsin, yenilik olsun.

**Xəyalə Rəis**